

ƏLİ NAĞIYEV,
Yeni Azərbaycan Partiyası sədrinin müavini,
Əmək və əhalinin sosial müdafiəsi naziri

# TƏKRARSIZ LİDER

Bəşəriyyət tarixində ən mürəkkəb və təlatümlü dövr sayılan XX yüzillik azadlıq və birlik arzuları dəfələrlə boğulmuş, ideoloji-mənəvi basqılara, diskriminasiya və represiyalara məruz qalmış, maddi varidatı talan edilmiş xalqımızın şərəfli mübarizələr və ağır itkilərlə öz məmləkətinə sahib çıxmaq, gələcək inkişaf yolunu müstəqil surətdə müəyyənləşdirmək haqqı ilə yadda qaldı. Tarixdə hər bir xalqın əzəmətini və qürurunu, mədəniyyətini, dilini, dinini yaşadan və yaşatdıran onun azad, müstəqil dövlətinin olmasıdır. Zaman bu adın məhvərində dolanır, xalqlar və millətlər bu kəlmənin ölçüsü ilə dəyər qazanırlar. Tarixdə mövcud olan dövlətlər və xalqlar özlərinin maddi sərvətləri və siyasi qüdrətlərindən daha çox zamanı üçün böyük izlər qoymuş, möhtəşəm işlər görmüş tarixi şəxsiyyətləri ilə tanınırlar. Çünki zamanın istər intibah, istərsə də sərt dönümlərində millətin və xalqın tale yolu görkəmli tarixi şəxsiyyətlərin fəaliyyəti ilə müəyyənləşir. Zamanın çağırışına cavab verən şəxsiyyətlər böyük şəxsiyyətlərdir. Həmin şəxsiyyətlər olduqca mürəkkəb və taleyüklü məsələləri həll etmək, vətəni xilas etmək üçün tarixin ən həlledici məqamında meydana çıxırlar. Xalqımızın mənəvi və dövlətçilik keçmişinə nəzər salanda istər-istəməz onun müdrikliyinə, zənginliyinə heyran qalır, bütün dünyanı heyrətləndirən Nizami, Füzuli, Nəsimi, Sabir, Cavid kimi dühaları, Təbrizi, Şeyx Səfi, Xətai kimi sərkərdələri qarşısında baş əyməli olursan. Bu mənada Azərbaycan xalqı xoşbəxt xalqdır. O xalq ki, miladdan çox əvvəl Manna, Midiya, Atropatena, Qafqaz Albaniyası kimi dövlətləri ilə dünya siyasətinin müəyyənləşməsində iştirak edib, zaman-zaman Yaxın və Orta Şərq ərazilərini idarə edib, xalqının başını tarix qarşısında uca tutacaq qədər böyük şəxsiyyətlər yetişdirib. Məhz belə qədim sivilizasiyalı xalq XX əsrdə Heydər Əliyev kimi dühanı bəşəriyyətə bəxş etdi.

Tariximizi bilmək təkcə bizə qədimliyimizi tanıtdırmaq, ulularımızın miras qoyduğu milli qeyrət və soykökü ənənələrini nəsillərə vermək üçün yox, həm də şəxsiyyətlərin hadisələrə, dövlətə, cəmiyyətə münasibətlərini qiymətləndirə bilməyimiz üçün lazımdır. Çünki hər kəs tarixdə öz əməli ilə tanınır və qalır. Bu gün Azərbaycanda tarixi ənənələrdən, milli-mənəvi keyfiyyətlərdən bəhrələnərək ölkəsini dünyanın nüfuzlu təsisatlarına inteqrasiya yolu ilə inkişaf etdirmək, xalqının milli hüquqlarını, tarixi haqlarını həyata keçirmək kimi şərəfli missiyanı çiyinlərinə götürən, yeni dünya sisteminin düzənləndiyi və onun yeni idarəetmə formasının

meydana gəldiyi bir dövrdə dövlət gəmisini təlatümlərdən qoruyub saxlamağı, sərt taleyüklü sınaq məqamlarında mayak rolunu oynamağı bacaran tarixi şəxsiyyətin varlığı hər bir azərbaycanlının qürur mənbəyidir. Bu mənada Heydər Əlirza oğlu çox böyük maneələri dəf edərək ən uca zirvələri fəth etməyi bacaran nadir tarixi simadır. Tariximizin son əlli ili bu parlaq zəka sahibinin adı ilə bağlıdır. Çünki onun bütün həyat kredosu, fəaliyyətinin bütün dövrü milli-mənəvi inkişafımızın tərkib hissəsi olan milli özünüdərkin, özünütəsdiqin, milli birlik ide-yasının, milli qürurun, ləyaqətin, məsuliyyət hissinin, vətəndaşlıq duyğularının, qədim tarixə, yüksək mədəniyyətə, intellektual səviy-yəli cəmiyyətə malik xalqımızın öz mənliyinə sahib olmaq haqqının formalaşması və inkişafına təkan vermiş, milli dövlətçilik siyasətinin özəyini təşkil edən milli şüurun tərəqqisi yönündə imkan və bacarığını əsirgəməmiş, milli genofondun, xalqın mübarizə ruhunun qorunması yönündə əvəzsiz xidmətlər göstərmiş, uzun illərin basqısından depressiyaya uğramış mənəviyyatın, heysiyyətin sağlamlaşması və bərpasına həsr olunmuşdur.

Zəkasının qüdrəti ilə bir insan ömrünə sığmayan işlər görən Heydər Əlirza oğlu sovet ideologiyasının hakim olduğu bir dövrdə də, ziddiyyətlərlə dolu taleyimizə təhlükə törədən bir çox təzahürlərin meydana gəldiyi dövrdə də, bütün məşəqqətlərə və çətinliklərə sinə gərərək qəhrəmanlıq nümunəsi göstərmiş, xalqın dirçəlişi və rifahı üçün çalışmış, ölkəmiz əsrə bərabər inkişaf yolu keçmişdir. Məhz mövcud cəmiyyəti yenidən qurmağı, sosial-iqtisadi inkişafa nail olmağı, ölkəni beynəlxalq hüququn subyekti kimi beynəlxalq münasibətlər sisteminə qovuşdurmağı, parlaq qələbələrimizi, tərəqqi yolumuzu bu şəxsiyyət müəyyənləşdirdi. Müstəqil dövlətçiliyin qorunub saxlanmasını, vətəndaş birliyinin yaradılmasının milli-mənəvi və konseptual əsaslarını da məhz bu şəxsiyyət ortaya qoydu. O, insanları vahid ideologiya və müstəqil dövlət ətrafında birləşdirməyi bacardı, eyni zamanda müstəqil dövləti vətəndaşların xidmətinə qoymağın nümunəsini göstərdi.

Azərbaycan dövlətçiliyinin xilasından sonrakı inkişaf mərhələsini də bu şəxsiyyət müəyyənləşdirdi və onu mərhələ-mərhələ bu günümüzə gətirib çıxardı. Ölkənin iqtisadi, siyasi, sosial, mənəvi inkişafının daha sivil yollarını və istiqamətlərini müəyyənləşdirərək prioritet kimi götürdü. Bütöv bir millətin taleyini yaşayan Heydər Əlirza oğlu əsl vətəndaş mövqeyi, dövlətə, vətəndaşlara xidmətin əsl nümunəsini göstərdi. Heydər Əliyev milli-mənəvi inkişafımızı xaotiklikdən sistemləşməyə doğru apardı, üfüqlərdə görünən arzuları həqiqətə çevirməyi bacardı, prinsipial və qəti qərarları ilə məqsəd aydınlığı yaradaraq, güclü və dəqiq addımları ilə milli dövlətimizi daha görüntülü olması qənaətinə gətirib çıxardı. Vətəndaşı olduğu vətəni zülmətdən çıxaran, həyatının mənasını öz xalqının rahatlığına, xoş gələcəyinə həsr edən, vətən üçün ömür sərf edən, vətənin bütövlüyü, dövlətin bütövlüyü uğrunda çalışan bu şəxsiyyət əməlləri ilə çağdaş dövlətçilik tariximizin ən şanlı salnamələrini, ən şərəfli səhifələrini yazdı. Yüksək analitik təfəkkürə, psixoloji intuisiyaya, idarəçilik metoduna və zəngin ideya-nəzəri irsə malik olan fenomenin həyatının hər dövrü, hər mərhələsi,



sözün əsl mənasında məktəb olmuşdur. Zəngin tərcümeyi - halının istər Sovetlər Birliyinə rəhbərlik etdiyi dövrdə, istər fərdi təqaüdçü, istər istiqlal lideri olduğu dövrlərdə müstəqil Azərbaycan, milli dövlət ideyası, ona xidmət əzmi həyatının mənasına çevrilmişdir. Daim iri çarpışmaların, təbəddulatların içərisində olan, dünyada gedən qlobal dəyişikliklər fonunda siyasi, iqtisadi, geopolitik hadisələr burulğanında boğulan xalq azad olması üçün kamil idarəçilik təcrübəsi olan Heydər Əlirza oğlunun son ümid yeri olduğunu şüurlarda dərk etdi. Bu böyük şəxsiyyət vətənə, xalqa xidməti ilə insanlığın ən uca zirvəsinə ucalaraq ölməzlik tarixi yazdı.

Heydər Əlirza oğlu xalqının yetirdiyi böyük şəxsiyyətlərdən biri və təkrarsızıdır. Onun böyüklüyünü, qüdrətini qavramaq üçün bu böyük şəxsiyyəti dərk etmək məqamına ucalmaq lazımdır. Mübaliğəsiz demək olar ki, Heydər Əliyev tarixin yaratdığı şəxsiyyət olmaqla, həm də tarixi yaradan şəxsiyyətdir. Oxşar talelər yaşamış Fransanın Şarl de Qoll, Almaniyada Konrad Adenauer, Türkiyədə böyük Mustafa Kamal Atatürk öz xalqlarının həyatında nə qədər önəmli şəxsiyyətlər idisə, Heydər Əlirza oğlu da, öz xalqına xidməti ilə dünya siyasətinin bu aparıcı simaları ilə bir sırada durur. Dünyanın aparıcı və qüdrətli dövlətlərinin həyatında baş verən önəmli tarixi məqamları xatırlamaq yerinə düşər.

Mudros barışığının olduqca sərt və həqarətli şərtləri sultan hökumətinə təqdim edilərkən türk xalqı özünün çoxəsrlik tarixinin ən ağır və təhlükəli günlərini yaşayırdı. Türkiyə I Dünya müharibəsində uduzmuş, Osmanlı imperiyası faktiki varlığını itirmiş, Antanta qoşunları Bosfor boğazını işğal edib, İstanbula, Ankaraya daxil olmuşdur. Türkiyə parçalanmaq ərəfəsində idi. Anadoluda alovlanan milli azadlıq hərəkatı qeyri -mütəşəkkil və pərakəndə idi. Milli qüvvələrin birləşdirmə zərurəti yarananda böyük Mustafa Kamal meydana atıldı. Atatürk deyirdi: - «Bir qərar var, milli suverenliyə və məhdudiyyətsiz istiqlaliyyətə malik türk dövləti qurmaq». Beləliklə, müzəffər sərkərdənin əvəzsiz xidmətləri, mütəşəkkil zəfər yürüşü qələbə ilə nəticələndi.

General-diplomat Şarl de Qoll fransız vətəndaşlarının arzusunu ifadə edərək respublikaya rəhbərlik etməyə razılaşanda, cəmiyyətdə son dərəcə gərgin vəziyyət yaranmışdı. Ölkə faktiki vətəndaş müharibəsi həddinə çatmışdır. Bu böyük şəxsiyyət daha inamla mübarizə aparıb fransız xalqını birləşdirməyi və güclü demokratik dövlət yaratmağı bacardı. Ölkəni tərəqqi etmiş bir dövlətə çevirdi.

XX əsrin ən böyük simalarından biri Konrad Adenauer II Dünya müharibəsində məğlubiyyətə uğramış, viran edilmiş Almaniyanı əvvəlki görkəminə qaytarmaq ideyasını irəli sürəndə, bütün Avropa bunu istehza ilə qarşılamışdı. Çünki 13 milyon vətəndaşı həlak olmuş, 20 milyonu şikəst olmuş ölkənin ruh düşkünlüyü, təslimçilik psixologiyası bu ideyanı mümkünsüz edirdi. Adenauer viran qalmış məmləkətin bütün iqtisadi göstəriciləri üzrə stabil inkişafa nail oldu, dövlətçiliyin qarantı olan demokratik təsisatlarını yaratdı. Bu tarixi məqamların bir etirafı var ki, şəxsiyyətin rolu tarixdə danılmazdır və başlıca faktordur. Konkret şəraitin və vəziyyətin dəyişməsi cəmiyyətdə yaxın və uzaq perspektivdə baş verə bi-

ləcək dəyişikliklərin idarə edilməsi üçün yeni vasitələr seçilməsini tələb edir. Tarixi şəxsiyyətlər özlərinə xas siyasi duyumları ilə zamanın tələbini hamıdan daha çox hiss etmiş və bunu lazımınca qiymətləndirməyi bacardıqları üçün xalqlarını sərt taleyüklü sınaq mərhələsindən uğurla çıxara bilmişlər. Əsrin sonunda bu şərəfli missiyanı öz xalqı üçün Heydər Əlirza oğlu həyata keçirə bildi.

Azərbaycan öz tarixinin ən çətin anlarını yaşayanda, cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər baş verəndə, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımız hərraca qoyulanda, ölkədə siyasi situasiyanın kəskin dəyişdiyi, dövlətçiliyin ciddi təhlükəyə məruz qaldığı zamanda, ölkəni xalq adından idarə edən, əslində ən adi idarəçilik qaydalarını bilməyən məhdud bir qrup tərəfindən məmləkətin milli fəlakət həddinə gətirildiyi bir dövrdə Heydər Əlirza oğlu bu məsələlərin ağırlığını çiyinlərinə götürdü və ölkəni fəlakətlərin girdabından qurtararaq, qüdrətli, milli təfəkkürə əsaslanan müstəqil dövlətə çevirdi. Siyasətimizə bir əxlaq, sivil mübarizə nümunəsi gətirdi, dövlətçilik maraqlarını qrup mənafelərindən və ambisiya buxovundan azad edilməsi prinsipini önə çəkdi. Bənzərsiz idarəçiliyi, sarsılmaz qətiyyəti, dərin yaddaşı və yüksək təşkilatçılığı olan Heydər Əlirza oğlu idarəetmə sistemində və cəmiyyətdə total sovet rejiminin ayrı-ayrı təzahürlərini aradan qaldırmaqla bəşər sivilizasiyanın keçdiyi inkişaf mərhələlərindən qazandığı böyük nailiyyətlərə arxalandı, demokratiya və islahatlar sahəsində yüz illər yol keçmiş ölkələrin təcrübələrindən bəhrələndi, tərəqqi əldə edib yüksək inkişafa nail oldu, dəyişən idarəetmə sistemi cəmiyyətdəki münasibətlərə yeni məzmun və forma verdi, əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərin üstünlüyünü qəbul edib demokratik hüquqi dövlət quruculuğu yolunu seçdi. Müstəqillik ideyasını getdikcə milli hiss səviyyəsindən siyasi təfəkkür səviyyəsinə yüksəltməyi bacardı. Heydər Əliyev ölkənin siyasi reallıqlarını, problemlərini dərindən bilən, onun istiqamətlərini, inkişaf yollarını düzgün göstərməyi, bu gün və gələcək üçün vəziyyəti proqnozlaşdırmağı bacaran şəxsiyyətdir. Məhz onun bu keyfiyyətləri ölkənin gələcək inkişaf modelini yaratmağa imkan verdi.

Dövlətin yaşaması və inkişafı üçün onun iqtisadiyyatının inkişaf etdirilməsi başlıca şərtdir. Böyük Mustafa Kamal - «ən böyük zəfər ekonomik zəfərdir» - demişdi. Heydər Əliyev əlverişli, geosiyasi məkanda və zəngin təbii sərvətlərə malik ölkənin iqtisadiyyatının inkişafı üçün böyük imkanlar yaratdı. Zəngin karbohidrogen ehtiyatlarının dünyaya çıxarılması başlıca şərt idi. Daxili və xarici bədxahların terror əməliyyatlarına baxmayaraq, əsrin müqaviləsi adlı ilk neft kontraktı imzalandı. Sonra daha 20- yə qədər neft sazişləri bağlandı. İndiyədək ölkə iqtisadiyyatına milyardlarla dollar xarici investisiya qoyulmuş, yüzlərlə neft şirkətləri fəaliyyətə başlamışdır. Bu gün təbii sərvətlərdən milli mənafeyə uyğun istifadə uğurla həyata keçirilir. Bağlanan müqavilələr milyardlarla dollar həcmində xarici sərmayənin ölkəyə axmasına şərait yaratdı. Bu müqavilələrin təkcə maliyyə tərəfi ilə bərabər siyasi tərəfi də böyük əhəmiyyət kəsb edir. Respublikamızın dünya siyasəti üçün vacib bir regionda, beynəlxalq aləmdə rolunu, nüfuzunu artırmağa xidmət edir. Ölkənin gələcək inkişafına yönələcək Bakı-Tbilisi- Ceyhan neft kəməri, Bakı-Ərzurum qaz kəməri, İpəkyolu, bütövlükdə Şərq-Qərb enerji, nəqliyyat, telekommunikasiya dəhlizinin gerçəkləşməsi Heydər Əliyevin gələcək nəsillərin rifahı üçün yaratdığı etibarlı təməldir.



Heydər Əliyev yorulmaz və cəsarətli islahatçıdır. Bazar iqtisadiyyatına keçidi təmin edən islahatların həyata keçirilməsi üçün hüquqi bazanın yaradılması, sahibkarlığın inkişafı, özəlləşdirmə, aqrar islahatların həyata keçirilməsi, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, inhisarçılığın aradan qaldırılması, ticarətin liberallaşdırılması, rəqabətin inkişafı, əhalinin sosial müdafiəsini təmin edən qanunvericilik aktlarının qəbul edilməsi bu şəxsiyyətin rəhbərliyi altında bu qəbildən olan işlər nəticəsində istehsalda tərəqqi baş vermiş, iqtisadiyyat dirçəliş dövrünə qədəm qoymuşdur.

Heydər Əliyevin dünya siyasətində aparıcı simalarından biri olması, misilsiz dövlətçilik məharəti, zəngin təcrübəsi sayəsində ölkəmiz BMT, Avropa Şurası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq təşkilatı, İslam Təşkilatı Konfransı, MDB, Qara Dəniz ölkələri iqtisadi əməkdaşlıq təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankına üzv olmuş, Parlamentlərarası ittifaqlar, Avropa Birliyi, NATO və başqa beynəlxalq təşkilatlarla faydalı əlaqələr yaratmışdır.

Millətin və dövlətin möhkəmliyi, onun uzunömürlülüyü ilk növbədə cəmiyyətin saflığından asılıdır. Heydər Əlirza oğlu cəmiyyətdəki sosial-psixoloji bəlalara qarşı birtərəfli mübarizə aparmır, yəni problemi inzibati yollarla deyil, mənəvi-əxlaqi dəyərlərin bərpası, qorunması və inkişaf etdirilməsi yolu ilə çalışır.

Azərbaycan dilinin təkmilləşdirilməsi, inkişafı və onun tətbiqi dairəsinin genişlənməsi, latın qrafikalı əlifbaya keçid, milli-mənəvi mentalitetimizin qorunması, adət-ənənələrimizin inkişaf etdirilməsi, mənəvi sahədə müşahidə edilən mənfi meyllərin aradan qaldırılması, mənəvi birliyimizin möhkəmləndirilməsi bu tarixi şəxsiyyətin müstəsna xidmətləri sayəsində həyata keçirilmişdir. Bütün bunlar Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qoruyucusu olduğuna əyani sübutdur. Müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyəti birləşdirən əsas meyar mədəniyyətdir. Mədəniyyət inkişafımızın ayrılmaz tərkib hissəsidir. Mədəni səviyyəsi yüksək olmayan hər hansı məmləkətin nə iqtisadi, nə siyasi, nə də ictimai inkişafından söhbət gedə bilməz. Böyük Cavid demişdir: «Turana qılıncdan daha kəskin, ulu qüdrət, Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət»

Azərbaycan xalqının öz musiqisi və ədəbiyyatı ilə heç bir dünya xalqlarından geri qalmaması fikrinə sadiq qalan Heydər Əliyev sovet ideologiyasının hakim olduğu dövrdə də, xalqın malik olduğu mənəvi intellektual potensialın, böyük mədəniyyət və özünüdərk səviyyəsinin yüksəlişi üçün əzmkarlıq göstərmişdir. Həmin illərdə görkəmli mədəniyyət və incəsənət xadimləri Q.Qarayev, F.Əmirov, Niyazi, Tahir Salahov, R.Behbudov bütün dünyada tanındı, A. Məlikov, M.Maqomayev, T.Nərimanbəyov, Fidan və Xuraman Qasımovalar kimi böyük sənətkarlar öz imkanlarını üzə çıxara bildilər. Bir tarixi məqamı xatır-

lamaq yerinə düşər. Azərbaycanın dahi şairi Nizami Gəncəvinin Lüksemburqda Rusiya səfirliyi önündə büstü qoyulub. İttifaq dövründə SSRİ–nin Lüksemburqdakı səfiri bu dövlətdəki səfirliyin ərazisində bütün müttəfiq respublikalardan eksponatlar qoyulacaq qalereya üçün elə bir şey göndərilməsini xahiş etmişdir ki, o həmin respublikanın tarixini və mədəniyyətini özündə əks etdirsin. Heydər Əliyev həmin qalereya üçün Nizami Gəncəvinin büstünü göndərmişdir. Bax, budur, böyük şəxsiyyətin öz xalqının mədəniyyətinə verdiyi qiymət. Dünya poeziyasının korifeyi Məhəmməd Füzulinin 500 illik yubileyinin türkdilli xalqların nümayəndələrinin iştirakı ilə keçirilməsi, böyük maestro M.Rostropoviçin 70 illik yubileyi ilə bağlı Heydər Əliyevin Fransaya səfəri onun mədəniyyətimizə göstərdiyi qayğının təzahürləridir.

Fəaliyyətinin bütün dövrlərində mədəniyyətimizin inkişafına böyük önəm verən Heydər Əliyev memarlıq tikililərinin inşası üçün xeyli iş görmüşdür. Bakıda İ.Nəsimi, N.Nərimanov, C.Cabbarlı, M.Əzizbəyov, S.Vurğun, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, H.Cavid və başqa mütəfəkkirlərə ev muzeyi, şəhidlərin xatirəsinə ucaldılmış nəhəng abidə, Opera və Balet Teatrı, Gənc Tamaşaçılar, Musiqili Komediya Teatrı milli-memarlıq ənənələrimizin tələbləri və həmin binaların tarixi siması gözlənilməklə, yenidən qurulub ictimaiyyətin istifadəsinə verilməsi və digər tikintilər Heydər Əliyevin adı ilə bağlı olub, onun gərgin əməyi, diqqət və qayğısı sayəsində həyata vəsiqə qazanıb. Naxçıvanda Möminə Xatun türbəsinin bərpası, H.Cavid məqbərəsinin inşası, N.Gəncəvi, Vaqifin məqbərələrinin yenidən qurulması və tikilməsi, Qazaxda S.Vurğuna yeni abidə qoyulmaşı, doğulduğu kənddə poeziya evinin tikilməsi və saymaqla qurtarmayan memarlıq nümunələrinin hər birində Heydər Əliyevin vətəndaşlıq təşəbbüsü, rəhbər qayğısı, müəlliflik imzası var. Çünki bu memarlıq nümunələrində onun işıqlı zəkasının, memarlıq təxəyyülünün məhsulu olan ideyalar, tövsiyələr var. Azərbaycan tarixinin qəhrəmanlıq rəmzi olan tarixi şəxsiyyətlərin və obrazların, görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin abidələri ucaldıqca, Azərbaycanın hər guşəsində onun milli özünüdərk, milli özünütəsdiq möhürü vurulurdu. Mənəvi saflığımız, əxlaqi təmizliyimiz uğrunda mübarizə aparan Heydər Əliyev xalqımızın inam, etiqad ocaqlarına da daima böyük qayğı göstərmişdir. İçərişəhər tarixi memarlıq qoruğu, Şəki xan sarayı, Naxçıvanda «Qarabağlar» tarixi memarlıq abidələrinin bərpa edilməsi, Bibiheybət məscidinin yenidən inşası və s. bu qəbildəndir. Heydər Əliyev tikib quran şəxsiyyətdir, yaradıcı insandır, böyük memardır. Milli – mənəvi inkişafımızın 70-cı illər dövrü elə bir sahə yox idi ki, sürətlə inkişaf etməsin. 60-cı illərin axırlarında ölkədə 233 sənaye müəssisəsi olduğu halda, Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə 213-ü də əlavə edildi. Bakı Dərin dəniz özülləri, Gəncə çini qablar, Sumqayıt kompressorlar, ozon, Ulduz zavodları və digər sənaye müəssisələri, 2 il müddətində əvvəl Orta Asiya, sonra bütün sovet məkanının böyük tələbatı olduğu Bakı məişət kondisionerlər zavodu tikilib istifadəyə verildi. Ölkənin neft və maşınqayırma sənayesi sürətlə inkişaf edirdi. Respublika sarayı, Gülüstan sarayı, Prezident sarayı, Milli Məclis binası, İdman- konsert kompleksi, Əl oyunları sarayı, Moskva univermağı, Azərbaycan, Təbriz, Moskva mehmanxanası və onlarla möhtəşəm binalar, mikrorayonlar, metro stansiyaları Heydər Əlirza oğlunun yaratdıqlarıdır. Bu dövrdə xalqın iqtisadi rifahı və ümumi mədəni səviyyəsi ilə bərabər onun ictimai şüurunun dərinliklərində sıxılan milli təfəkkürü, milli özünüdərki də yüksəlirdi.



Bu mənada Heydər Əliyev həm də öz yaratdıqları ilə xoşbəxt adamdır. Böyük Cavid demişkən: «Bir iyilik yapsan izsız yurduna,
Səadət pərisi gülümsər sana».

Onun saysız-hesabsız yaratdıqları təkcə sovet dövlətinin əldə etdiyi tərəqqinin nailiyyətləri deyil, dövrün ideoloji məhdudiyyətlərinə baxmayaraq milli məfkurə və milli ruhun yüksəlişinə çalışdığı millətə, bütün varlığı ilə bağlı olduğu vətənə tükənməz sevginin ifadəsi idi.

Qurub yaratmaq üçün Vətən, millət sevgisi olmalıdır. Özünü dərk etməyən xalqın Vətən sevgisi ola bilməz. Torpaq, ərazi o zaman Vətənə çevrilir ki, o milli ideyanın maddi təzahürlərinə çevrilmiş olsun. Duyğu səviyyəsində sevgi hissləri hələ Vətəni sevmək üçün yetərli deyil. Heydər Əlirza oğlu milli – mənəvi dəyərlərə dərindən bələd olduğu, onun qorunub saxlanılması və inkişafına çalışdığı üçün Vətən sevgisini instiktiv duyğu səviyyəsindən təfəkkür milli şüur səviyyəsinə yüksəltməyi bacardı. Bu dəyərlərsiz millət anlayışı da yoxdur, millət sevgisi də. Millətin tamlığı onun əsas əlamətləri yaşadığı coğrafi məkanı, dili, dini, milli ruhu və milli özünüdərkidir. Bu böyük şəxsiyyətin milyonlara örnək olan Vətən sevgisi elə milli – mənəvi dəyərləri özündə ehtiva edən millət sevgisidir. Nailiyyətləri gücə və zülmə bağlı olan Sovetlər birliyinin süquta yetməsinin başlıca şərtlərindən biri də məhz elə proletar beynəlmiləlçiliyi siyasətini əsas götürən sovet siyasi rəhbərliyinin xalqların milli - vətənpərvərlik hisslərini sovet vətənpərvərliyi pərdəsi altında boğması idi və sovet ideoloqlarının milli vətənpərvərliyi faşizmin baş qaldırması üçün mənbə sayan cəfəng siyasəti onun iflasını qaçılmaz etdi.

*Zülm evi bərbad olar gər kəbətullah olsa da,*
*Qaniçən zatın içərlər qanın, allah olsa da.*

Zəngin dəyərlər xəzinəmiz sayılan tarixi yaddaşımız və milli kökümüz bizim milli qürurumuzdur. Heydər Əlirza oğlu bu mənəvi, əxlaqi, mədəni və sosial dəyərlərə misilsiz qayğısı ilə hər kəsə millətə bağlılıq, sevgi nümunəsi göstərdi. Vətən sevgisi millət sevgisi ilə bağlıdır. Millət sevgisi milli qürurla bağlıdır. Milli qürur olmadan isə təkrarsız lider olmaq olmaz.

Xalqın yüksəlişi üçün qətiyyətlə həyata keçirilən işıqlı ideyalar vətənə xidmətin ən parlaq nümunəsi sayılır.

Sovet dövlət maşınının və ideologiyasının hakim olduğu dövrdə Heydər Əliyev bu ideoloji sistemi öz xalqının köklü maraqlarının həllinə yönəltməyi bacaran şəxs kimi ölkənin mənəvi potensialının inkişafına səylə çalışmış və o illər elmimizin, mədəniyyətimizin, iqtisadiyyatımızın əsaslı yüksəliş dövrü olmuşdur.

İmperiya tərkibində müstəqil adlanan respublikanın dövlət atributları yalnız formal xarakter, rəmzi səciyyə daşısa da, məhz Heydər Əliyev özünün siyasi uzaqgörənliyi ilə tarixin hər hansı kəskin dönəmində Azərbaycan öz siyasi varlığını qoruyub saxlaya biləcəyi, müstəqil dövlət qura biləcəyi, intellektual, potensial, milli özünüdərk səviyyəsi qazandıra bilmişdi. Onun uzaqgörənliyi, düşünülmüş və qəti addımları ilə keçmiş sovetlər birliyinin ali məktəblərində respublikamıza gərəkli ixtisaslara yiyələnmək üçün gənclər təhsil almış, ölkədə çoxsaylı mütəxəssislər ordusu yaradılması mümkün olmuşdur. Bu potensial qüvvənin əsas missiyası Azərbaycanın gələcəyi üçün düşünülmüşdür. Böyük iftixar hissi ilə deyə bilərik ki, bu insanlar bu gün ölkəmizin kadr potensialının özəyini təşkil edir.

Zaman keçdikcə bu böyük təşəbbüsün mahiyyəti başa düşüldü. Keçmiş sovetlər birliyinin ən nüfuzlu elm, təhsil ocaqlarında onlarla elmlər doktoru, yüzlərlə elmlər namizədi, 105 ali məktəbdə minlərlə zabit kadr yetişdirildi. O dövrdə təhsil almış mindən artıq yüksək rütbəli zabit sanki bu günümüzü düşünərək hərb elminə, hərb quruculuğunun sirlərinə yiyələnib və onların peşəkar kadr kimi yetişməsi əvvəldən hazırlanmış hərbi konsepsiya çərçivəsində aparılırdı.

Heydər Əlirza oğlu keçmişin inkar siyasətindən fərqli olaraq təkamül yolunu üstün tutan şəxsiyyətdir. Xalqımızın milli, mədəni, mənəvi irsinə söykənən prinsiplər Heydər Əliyevin nurlu ideyalarının məğzini təşkil edir.

Yaxın keçmişimizə nəzər salanda Moskvada, Sankt – Peterburqda təhsil alan Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları Fətəli xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun dövlətçilik tariximizdə nə qədər önəmli şəxsiyyətlər olduqları hər kəsə aydındır. Biz, keçmişdə göstərdiyi hərbi şücaətləri ilə hərb tariximizin salnaməsini yaratmış Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov kimi general sərkərdələri olan xalqın varisləriyik. Məhz bu tarixi ənənəyə söykənərək Heydər Əliyevin hərbi akademiyalarda aviasiya və artilleriya ali məktəblərində təhsil alan yüksək hazırlıqlı hərbçilər yetişdirmək səyləri yüksək vətəndaşlıq nümunəsidir. Bütün bu tədbirləri Heydər Əliyev yalnız bir məqsədlə – Azərbaycanın gələcəyini düşünərək, onun müstəqil bir dövlət kimi yaşamasını görərək buna zəmin yaratmaq məqsədilə həyata keçirirdi.

Bu gün də bu ənənə davam edir, gənclərimiz bütün sahələrdə ixtisaslı biliklərə yiyələnmək, dünya elmlərinin sirlərini mənimsəmək, dünya sivilizasiyasının bəhrələrindən istifadə etmək üçün Amerika, Avropa ölkələrində Heydər Əliyevin böyük qayğısı ilə təhsil alırlar.

Yaxın keçmişimizin acı məqamları bizə bir daha xatırlatdı ki, Heydər Əliyev siyasəti olmayan Azərbaycan yaşamaq haqqını, varlığını itirməyə məhkumdur. Heydər Əliyev Azərbaycan xalqının siyasi nüfuzudur. Onun həyat yolu Azərbaycan dövlətçiliyinin yüksəlişi, xalqın milli tərəqqi yoludur. Məhz onun on illər boyunca yaratmış olduğu mədəni – iqtisadi yüksəliş sayəsində yeni tarixi situasiyada Azərbaycan cəmiyyəti baş verən siyasi, ictimai dəyişikliklərə uyğunlaşa bildi, zamanın acı sınaqlarından inamla keçərək, dövrün məzmununa uyğun yeni tarixi, siyasi imkana nail oldu.